## SƏNƏTŞÜNASLIQ ART CRITICISM ИСКУСТВОВЕДЕНИЕ

**Salamova Aysel Aydın qızı**
Azərbaycan Milli İncəsənət Muzeyi
salamova1991@inbox.ru

# RUS RƏSSAMI VASİLİY VLADİMİROVİÇ PUKİREVİN YARADICILIĞINDA NİGAH MÖVZUSU

***Açar sözlər:*** *rus rəssamlığı, tənqidi realizm, nigah mövzusu, kilsə, kolleksiya, muzey*
***Key words:*** *Russian painting, critical realism, marriage topic, church, collection, museum*
***Ключевые слова****: русская живопись, критический реализм, тема брака, церковь, коллекция, музей*



Şəkil 1.
V.V.Pukirev (1832-1890).
Avtoportret. 1868.
Sankt – Peterburq. Dövlət Rus muzeyi.

XIX əsrin ortaları Rus rəngkarlığının canlandığı və yeni üslubların yarandığı dövr kimi yadda qalmışdır. Dövrün nümayəndələri incəsənətdə yaranmış tənqidi - realizm adlı yeni üslub vasitəsilə insanları real həyatda aktual olan acınacaqlı vəziyyətlə mübarizəyə səsləyirdi. Tənqidi – realizmin yolu ilə gedən ilk rus rəssamları Moskva rəssamlıq, heykəltəraşlıq və memarlıq məktəbini bitirən moskvalı tələbələr hesab edilirdi. Sankt – Peterburq akademiyasından fərqli olaraq onlar xalqın həyatına və ehtiyacına daha yaxın idilər.

Moskva rəssamlar qrupunun (Səyyar rəssamlar cəmiyyəti – «Передвижники») və tənqidi – realizmin əsas nümayəndəsi Vasiliy Qriqoriyeviç Perov (1834-1882) olmuşdu. [3] Onun yaradıcılığı XIX əsrin 60-cı illərində yaşayan bir çox rəssamlara xüsusən də moskvalı rəssamlara öz təsirini göstərmişdir. Rəssamın tənqidi - realizm üslubunda olan ilk əsərlərinin ardınca yerli rəssamlar "perov ənənələrini" genişləndirirlər. Qeyd edək ki, tənqidi rəssamlar hər zaman parlaq əsərlər yaratmağa qadir deyildilər. [2] Ancaq V.V.Pukirev qısa ömür sürməsinə baxmayaraq, bu üslubda çəkdiyi iki möhtəşəm əsəri ilə rus rəngkarlığı tarixində öz sözünü demiş oldu.

Kəndli bir ailədə dünyaya göz açan Vasiliy Vladimiroviç Pukirev (1832-1890) (Şəkil 1) ilk təhsilini aldıqdan sonra Mogilyov quberniyasında, ikona rəssamının yanında dərs almağa başlayır və 1847-ci ildə Moskva rəssamlıq, heykəltəraşlıq və memarlıq məktəbinə daxil olur. Burada baş rəssam professor S.K.Zaryankonun (1818 - 1870) idarəçiliyi ilə rəngkarlığı öyrənir. [4] Gənc rəssam tezliklə rəngkarlıq sahəsində öz istedadını göstərir. Portret janrı rus imperiyası dövründə aparıcı janr hesab edilirdi və demək olar ki, bütün rəssamların yaradıcılığında mühüm yer tuturdu. Pukirev də, XIX əsrin 50-ci illərində ona xüsusi uğur gətirən portret janrına müraciət edir. O, tənqidi – realizmin əsas mahiyyətini göstərən bir neçə tablo yaradır. Pukirev akademik qaydalara bağlı bir rəssam idi. [2] 1850-ci ildə iki rəsm əsərinə görə gimnaziyada rəsm müəllimi, 1855-ci ildə isə Gerkenin qızının naturadan çəkdiyi iki portretinə görə "sinifdənkənar rəssam" («неклассный художник») adına layiq görülür. 1858-ci ildə texnikumu bitirir və "müstəqil rəssam" («свободный удожник») adını qazanır. Rəssam portret janrında öz yaradıcılığını davam etdirir və 1860-ci ildə çəkdiyi iki böyük portret etüdünə ("Qız") görə tarixi və portret janrında çəkdiyi əsərlərə görə akademik fəxri adını alır.

1860-cı illərdə Pukirev Bolşaya Lubyanka küçəsində, sonralar isə Moskva rəssamlıq, heykəltəraşlıq və memarlıq məkəbinə yaxın bir ərazidə ev tutur və oraya köçür. 1861– 1873-cü illərdə isə həmin məktəbdə müəllim kimi də çalışır. [4]

Rəssamı bütün Rusiyaya tanıtmış və Rəssamlıq Akademiyasının professoru adını qazandırmış "Bərabər olmayan nigah" («Неравный брак») əsərini o, 1862-ci ildə Moskva rəssamlıq, heykəltəraşlıq və memarlıq akademiyasını bitirdikdən sonra, 30 yaşında olarkən yaradır. (Şəkil 2) Əsər rus mətbuatında mübahisə doğurur. "Bərabər olmayan nigah" əsəri gənc Pukirovu 1863-cü ildə keçirilən akademik sərgiyə aparır. [6] Əsər nümayişə qoyulduğu ilk vaxtlardan dövrün məşhur kolleksioneri Pavel Mixayloviç Tretyakov (1832 - 1898) tərəfindən alınır və onun əldə etdiyi ilk əsərlər sırasına daxil olur. "Bərabər

olmayan nigah" əsəri rəssama uğur gətirməkdə davam edir, o, Rəssamlıq Akademiyası tərəfindən professor adına layiq görülür. Tablo bu günə kimi Moskvadakı Dövlət Tretyakov qalereyasında saxlanılır. Tənqidi – realizmin əsas nüanslarını özündə cəmləşdirən əsər keçən əsrlərdəki kimi indi də ətrafına böyük izləyici kütləsi toplayır. Bəhs edilən vaxtlarda Pukirevin yaşayış tərzi düzəlir və sifarişçilərinin sayı artır. Pukirev iki dəfə, 1862-63-cü illərdə və 1864-cü ilin may-iyul aylarında, "Həvəskar rəssamlar cəmiyyəti"nin köməyi ilə rəssamlığı daha dərindən öyrənmək üçün xaricə səfər edir.

Ancaq təəssüflər olsun ki, rəssam bu uğurunu bir daha təkrarlaya bilmir. V.V.Pukirevin sonrakı illərdə çəkdiyi "M.N.Obleuxovanın portreti" («Портрет М.Н.Облеуховой»,1855) "Qumarbaz" («Игрок», 1855), "Qadın qısqanclığı" («Ревность женщины»), "Qiyamət gününü şərh edən keşiş" («Дьячок, объясняющий картину Страшного суда», 1868), "Rəssam emalatxanasında" («В мастерской художника», 1865), "Dəmiryolunun tikintisi" («Строительство железной дороги», 1871), "Cehiz" («Приданое»,1873), "İoann Qrozniyə xeyir – dua verməyən Mitropolit Filipp" («Митрополит Филипп, не благословляющий Иоанна Грозного», 1873), "Qaytarılmayan borcların yığılması" («Сбор недоимок», 1875), "Konsesionerin qəbulunda" («В приёмной концессионера», 1876) və s. əsərləri tanınsa da, rəssama böyük uğur gətirməmişdir. Əsərlərinin müəyyən bir qismi dövrün janr rəngkarlığının orta səviyyəsində, həyatının son illərində yaratdığı dini mövzulu əsərləri isə daha aşağı səviyyədə idi. Rəssam kilsələr üçün ikonalar da çəkirdi. Pukirev Nikolay Vasilyeviç Qoqolun (1809 - 1852) "Ölü canlar" («Мёртвые души») və İvan Sergeyeviç Turqenevin (1818 - 1883) "Ovçunun xatirələri" («Записки охотника») əsərlərinə illüstrasiyalar da yaradır. V.V.Pukirev bununla kifayətlənmir və rəssam dostu A.K.Savrasovla (1830 - 1897) birlikdə 1869-cu ildə "Rəsm kursları" da hazırlayır. [4]

XIX əsrin 70-ci illəri rəssam üçün o qədər də uğurlu illər sayılmır. 1873-cü ildə V.V.Pukirev bərk xəstələnir və sağlamlığı ilə əlaqədar olaraq müəllimlik fəaliyyətindən imtina etməyə məcbur olur. O, şəkillərini satır, əldə etdiyi pula mənzilini dəyişir. Hətta müasirlərinin söylədiklərinə görə mülayim, yumşaq rəssamın xasiyyəti də dəyişir.

Bir əsərin rəssamı kimi yadda qalan V.V.Pukirev XIX əsrin 70-ci illərində öz şöhrətini geri qaytarmaq məqsədilə yenidən tənqidi – realizm üslubunda çəkdiyi nigah mövzusuna geri qayıdır. Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasına aid olan "Pozulmuş nigah" onun bu mövzuda çəkilən ikinci əsəri olur. O, kompozisiya quruluşunun orijinallığı ilə seçilən əsərində vurğuladığı mövzunun dərinliyinə varmasına çalışır. Yarandığı ilk vaxtlarda rəssama əvvəlki uğurunu təkrarlatmasa da, sonralar əsər nigah mövzulu tabloların ön cərgəsinə keçir. (Şəkil 4)

1879-cu ildə rəssamın müəllim yoldaşları yaşayış vəziyyətinin aşağı səviyyədə olmasını nəzərə alaraq onun pensiya almasına təşəbbüs göstərirlər. Ancaq rəssamın aldığı pul onun yaşayışına və sağlamlığına çatmır. 1890-cı ildə tamamən qayğısız və pulsuz qalan rəssam 58 yaşında ehtiyac içində vəfat edir. Onu Moskvadakı Vaqankovo qəbirstanlığında dəfn edirlər.



Şəkil 2.
Bərabər olmayan nigah. 1862. Moskva. Dövlət Tretyakov qalereyası.

XIX əsrə aid olan "Bərabər olmayan nigah" («Неравный брак») əsəri güclü sujet xəttinin təsirinə, məişət mövzusunun qeyri – adiliyinə və monumentallığına görə rus rəssamının istedadını rus rəngkarlığı tarixində yüksək zirvəyə qaldırır. (Şəkil 2)

Rəssam əsərdə dövrlə səsləşən mövzuya toxunur. O, məcburi nigahlara xeyir - dua verən kilsəni tənqid edir və qadın hüquqlarının qorunması uğrunda səsini qaldırır. [2]

Diqqətlə nəzər yetirsək görərik ki, əsərin tamamən başqa bir tərəfi də tamaşaçıda sual doğurur. Tablo ilk günlər nümayişə qoyulanda izləyicilər "şafer" (kilsədə baş tutan toy mərasimlərində gəlin və bəyin başı üzərində tac tutan şəxs) obrazında olan rəssamı tanıyır. Buna görə də sujeti müəllifin özü ilə əlaqələndirirlər. Ancaq əsərin yaranmasının əsas səbəbi rəssamın öz şəxsi kədəri deyil, yaxın dostu rəssam S.Varensovun uğursuz sevgi hekayəsi olur. V.V.Pukirev hadisədən ilhamlanaraq yaradıcılığında xüsusi yer tutan əsərini yaradır. S.Varensov valideynləri tərəfindən imkanlı fabrik sahibinə ərə verilən qızla ailə qurmağa hazılaşırdı. Sujetin ən maraqlı tərəfi bundan ibarətdir ki, S.Varensov toyda "şafer" kimi iştirak edir. Səbəbi isə bəyin bacısının S.Varensovun qardaşı ilə evli olmasından irəli gəlir. Görünür başqa namizəd tapılmamışdı. Əsərin ilk etapında Pukirev bu obrazda dostunu təsvir edir, ancaq onun etirazından sonra dostu ilə münasibətlərini



Şəkil 3.
S.M.Varensovun portreti. 1860-cı illər.

pozmamaq üçün təsviri öz portreti ilə əvəz edir. [5] (Şəkil 3)

Provoslav kilsəsində baş tutan nigah mərasimi tamaşaçıda qeyri - adi bir hiss yaradır. Sanki burada nə isə düz deyil. Rəssam sujetin qəribəliyini hər bir elementdə və personajda göstərib. Əsərdə baş tutan nigahın gizli tərəfi təsvir edilib. Fonda kilsənin ala - qaranlıq hissəsindən gələn işıq gəlinin, bəyin və küncdə durub olanlara kəskin baxışlarla tamaşa edən gənc oğlanın üzünü işıqlandırır. Xüsusilə gənc günahsız qıza göz qoyan məmurun satirik obrazı (bəy) kəskin tənqidə tuş gəlir. [2] Hündür boylu və səliqəli şəkildə geyinmiş və özündən razı şəkildə durmuş bəyin təzə yoldaşına tərəf yönəltdiyi nəzərləri izləyicini qıcıqlandırır. Onun boynundan II dərəcəli Vladimir ordenli xaç, sinəsində isə ulduzlu orden göstərilib. Bəyin qırış sifəti, çökük gözləri və seyrək ağ saçları onun yaşından xəbər verir. Şam tutan əli gənc qızın keşişə tərəf yönəltdiyi əli ilə sanki təzad yaradır. [5]

Gəlinin obrazına tamaşa etdikdə isə onun 16 – 17 yaşlarda olduğu məlum olur. Gənc qızın yumuru sifəti, zərif üz cizgiləri, ipək kimi açıq qəhvəyi saçı, balaca boyu onun gəncliyini və masumluğunu bildirir. Başındakı fata onun bakirəliyindən xəbər verir. Pukirev qızın əynindəki möhtəşəm şəkildə bəzədilmiş tüllü ağ gəlinliyinin bütün elementlərini, parçanın materialını və naxışlarını bütün gözəlliyi ilə təsvir edib. [5]

Rəssam qonaqlar arasında xüsusilə seçilən "şafer" obrazını əsərin künc hissəsində, gəlinin yanında göstərməklə onların incə, sevgi dolu münasibətlərinin acınacaqlı sonluğunu biruzə verib. O, profildən, əllərini çarpazlaşdırmış şəkildə durub və simasında narazıçılıq ifadə olunur. Oğlanın sinəsinə sancılmış qızılgül isə onların baş tutmayan sevgi kədərinin simvoludur. Əsərin qəhrəmanlarından yalnız onlar gənc və eyni zamanda kədərlidirlər.

Pukirev hadisədən o qədər təsirlənir ki, əsərdə bəyi çox yaşlı kişi obrazında verir. Əslində isə Korzinkin Sofiyadan 13 yaş böyük idi. Onlar evlənəndə onun 37, qızın isə 24 yaşı var idi. [5]

Qeyd edək ki, rəssam bəyin ilk evliliyi olmadığını onun gəlinlik paltarlarında çəkilmiş digər arvadlarının təsvirləri ilə göstərməyə çalışıb. Nəzərə çarpmayan şəkildə verilmiş yaşlı qadınlar qəzəblə keçmiş yoldaşına baxırlar. Onlardan biri keşişin, digər isə bəyin yanında durub. Rəssamın avtoportretinin yanında isə digər rəssam dostlarının təsvirləri də yer alır – Pyotr Şmelkov və Ramşik Qrebenskiy. Əsərin çərçivəsi də məhz R.Qrebenskiyə məxsusdur. Onun çərçivədə vurğuladığı solğun güllər kompozisiya ilə səsləşir.

Əsər nümayişə qoyulduqda sujet tamaşaçılara o qədər anlaşılan və aydın gəlir ki, onlarda heç bir təəccüb hissi doğurmur. Çünki bərabər olmayan nigahlar XIX əsr rus cəmiyyətində çox geniş yayılmışdı. Gənc qızları öz istəkləri olmadan imkanlı məmur və tacirlərə ərə verirdilər. Bu cür nigahlar rus cəmiyyətində yaralı bir mövzuya çevrilmişdi. Hətta 1854-cü ildə dahi rus dramaturqu A.N.Ostrovskinin "Yoxsulluq qəbahət deyil" ("Бедность не порок") pyesinin tamaşaya qoyulması və 1861-ci ilin fevral ayında aralarında yaş həddi çox olan nigahları qınayan qanun çıxardılması görünür gənc rəssamı bu aktual mövzunu kətanda əsk etdirmək istəyini həvəsləndirir.

"Bərabər olmayan nigah" əsəri ilə bağlı olan ən maraqlı hadisə əsərin Moskva rəssamlıq akademiyasındakı nümayişindən sonra baş verir. Deyilənə görə, bu əsəri gördükdən sonra gənc qızlarla evlənməyə niyyətli olan yaşlı generallar bu fikirlərindən əl çəkirlər. Hətta tarixçi N.Kostomarov dostlarına etiraf etmişdir ki, o, Pukirevin əsərini gördükdən sonra nişanlı olduğu gənc qızla olacaq evliliyindən imtina edir. Yəqin ki, bunu əsərin sehirli təsiri ilə əlaqələndirmək olar. [2]

1882 – ci ildə Moskva şəhərində keçirilmiş "Ümumrusiya sənət və sənaye" sərginin açılışında («Всероссийская художественно-промышленная выставка») Rusiya imperatoru III Aleksandr (1845 - 1894) ailə üzvləri ilə birlikdə iştirak etmişdir. Sərgi incəsənətin memarlıq, heykəltəraşlıq, rəssamlıq, musiqi, teatr, balet və s. sahələrini əhatə edirdi. Burada Antokolskiy, Bryullov, Vasnesov, Vereşaqin, Qe, İvanov, Kramskoy, Kuinci, Pukirev, Repin, Polenov, Pryanişnikov və s. kimi görkəmli rus rəssamlarının əsərləri nümayiş etdirilmişdir. V.V.Pukirevin "Bərabər olmayan nigah" əsəri də adı çəkilən rəssamların əsərləri sırasında layiqli yerini tutmuşdur. [7]

Pukirevdən əvvəl və sonra da digər rəssamlar nigah mövzusuna müraciət etmişlər: Pavel Fedotov (1815-1852). "Mayorun elçiliyi" («Сватовство майора», 1848. Dövlət Tretyakov qalereyası. Moskva); Akim Karneyev Yeqoroviç (1833 - 1896). "Bərabər olmayan nigah" («Неравный брак», 1866. Dövlər Rus muzeyi. Sankt – Peterburq); Firs Serqeyeviç Juravlev (1836 - 1901). "Nigahdan qabaq" («Перед венцом», 1874. Dövlət Rus muzeyi. Sankt – Peterburq); "Toy mərasimindən sonra" («После свадебной церемонии», 1874); Edmund Bleyr – Leyton (1852 - 1922). "Ölüm də ayırmaz" («Пока смерть не разлучит», 1878); Vladimir Makovskiy (1846 - 1920). "Cehizin seçilməsi" («Выбор приданого»); İllarion Mixayloviç Pryanişnikov (1840 - 1894) "Şaferi gözləyərkən" («В ожидании шафера», 1880-cı illər) və s.

Bir neçə il başqa mövzularda əsərlər çəkən Pukirev ona uğur gətirən nigah mövzusuna yenidən qayıdır - "Pozulmuş nigah" («Прерванное обручение»). (Şəkil 4)

Pukirev 1877-ci ildə tənqidi – realizm üslubunda "Pozulmuş nigah" adlı tablosunu yaradır. Hər iki əsərin ("Bərabər olmayan nigah" və "Pozulmuş nigah") bir neçə oxşar tərəfləri olsa da, süjet xəttinə görə bir - birlərindən tamamilə fərqlənirlər. O, bütün dövrlər üçün aktual olan nigah mövzusunun başqa bir mənfi tərəfini tablosunda əks etdirir. Ancaq süjet kədərli olsa da, o qədər də kəskin reaksiyaya səbəb olmur. Hadisə yenə də kilsədə cərəyan edir. Hər şeyin yaxşı getdiyi halda anidən vəziyyət dəyişir, yaşanan xoş anlar və dəqiqələr böyük bir yalana çevrilir. Əgər rəssam bundan qabaqkı əsərində üstünlüyü əsas qəhrəmanların da xili aləminin açılmasına yönəltmişdirsə, burada isə o, əsərə tamamən başqa bir aspektdən yanaşır. Yalnız baş vermiş hadisəyə səbəbkar olan obrazları deyil, mərasimdə iştirak edən bütün obrazları ön plana çəkir və eyni zamanda kilsənin interyerini də vurğulayır. O, bütün personajlarını kilsənin bir guşəsində yerləşdirib. Yuxarı pəncərədən düşən günəşin şüaları da məhz bu səhəni işıqlandırır və sanki izləyicisini də həmin məkana salır. İnsana elə gəlir ki, sən də bu nigah mərasiminə çağrılan, ancaq səhnənin arxasından baş vermiş hadisəyə tamaşa edən qonaqlardan birisən.

Səliqəli şəkildə ("frak"da - qara uzun pencək və ağ köynək) geyinmiş gənc oğlan (bəy) əlində yanan şamla başı aşağı vəziyyətdə dayanıb. Hər kəsin təəccübünə səbəb olan hadisənin əsas günahkarı odur. Tutduğu işdən peşmançılıq hissi keçirən bəy keşişin ona ünvanladığı suala cavab tapa bilmədiyindən başını aşağı salıb. Keşiş nigah mərasimini yarımçıq qoyur. Bəyin iki tərəfində onun yalanına aldanmış qadınlar göstərilib. Kədərli və qəmgin şəkildə başını yaşlı qadının (anasının) çiyninə qoyan gənc qadın bəyin birinci arvadıdır. Məhz o, nigah məsimindən xəbər tutan kimi bura gələrək yoldaşının yalanını üzə çıxardır və nigah haqqında sənədi keşişə təqdim edərək ailəli olduqlarını bildirir. Həmin sənəd keşişin əlində göstərilib. Rəssam gənc qadını tünd uzun libasda və plaşda təsvir edib. O, ərinin üzünə baxmamaq üçün gözlərini yumub. Əsərdə nəzərə dəyən obrazlardan biri də yaşlı qadındır. Onun qırışmış üz cizgiləri və yaş gələn mavi iri gözləri qızının taleyi üçün narahat olan bir ananın ümumiləşdirilmiş obrazıdır. Qadın üzünü keşişə yönəldib və əli ilə öz qızını işarə edir. Görünür o, keşişdən bütün olanlara onun necə xeyir-dua verməsinə və qızının vəziyyətini göstərməyə çalışır.

Əlbəttə ki, əsərə tamaşa etdikdə bəyin yoldaşı ilə yanaşı, evlilik həyatına ilk addımlarını atan gəlinə izləyicinin daha çox rəhmi gəlir. Rəssam rastlaşdığı ilk böyük yalanın qurbanı olan qızın məsumluğunu qəhrəmanında xüsusilə vurğulayıb. Onun ağarmış solğun üzü əynindəki ağ gəlinliklə eyni rəng çalarlarında verilib. Qız hadisənin həyacanından huşunu itirib. İki cavan oğlan isə onu tutub. Maraq oyadan elementlərdən biri də gəlinin libasıdır. Biz bu libasın bənzərini rəssamın "Bərabər olmayan nigah" əsərində də görə bilərik. Rəssam paltarın hər bir detalını çox böyük ustalıqla və xüsusi incəliklə işləyib. Eyni zamanda keşişin mərasim libasını ("riza") da vurğulamamaq mümkün deyil. Qızılı parçadan tikilmiş libasın parıltısı onun rolunun vacibliyini vurğulayır. Keşiş bu yalanın, ailə dramının son həllini söyləməlidir.

Ətrafdakı insanlar maraq dolu baxışlarla arxadan boylanırlar. Rəssam onların üzlərindəki ifadələri də işıqlandırıb. Qonaqların bir qismi huşunu itirmiş gəlinə, bir qismi isə öz gəlişi ilə nigah mərasimini pozan qadına baxır. Onların üzlərində əsas qəhrəmanlardan fərqli olaraq kədər deyil, maraq və təəccüb hissi oxunur. Gəlinin əlindən döşəməyə düşmüş şam isə nigahın acınacaqlı sonluğunu bildirir. Əsərdəki personajların geyimi XIX əsrin sonu, çar Rusiyası dövrünə aid edilir.

Kompozisiya tək sujet xətti ilə deyil, o cümlədən, kilsənin möhtəşəm interyeri ilə də maraq oyadır. Rəssam XIX əsr rus kilsəsinin əzəmətini – hündür tavan, böyük həcmli sütun, sütundan asılmış qızılı oklada ilə əhatələnmiş ikona və müqəddəslərin təsvirləri olan divar rəsmləri ilə önəmsəyib. Yuxarı pəncərədən düşən şüalar və şamların işığı tünd fonda çəkilmiş divar rəsmlərini üzə çıxardır.

Pukirevin "Pozulmuş nigah" əsəri ona əvvəlki əsəri kimi şöhrət gətirmir. Hər iki əsəri müqayisə etsək belə nəticəyə gəlmək olar ki, burada o, sanki izləyicisini intizarda saxlayır. Çunki sujetin sonluğu və necə bitəcəyi sual altında qalır.

"Bərabər olmayan nigah" əsəri nümayişə qoyulduğu ilk vaxtlardan Tretyakov qalereyasının kolleksiyasına daxil olsa da, "Pozulmuş nigah" əsərinin yolu ondan fərqli şəkildə keçmişdir. Belə ki, araşdırmalar nəticəsində məlum olmuşdur ki, əsər rus rəssamı Danyil Yakovleviç Çerkesin (1899 - 1971) şəxsi kolleksiyasına daxil idi. (Ehtimal edilir ki, əsər əvvəlcə Mamontovların kolleksiyasında olub) Rəssamlıq yaradıcılığına 1920-ci illərdən başlayan D.Y.Çerkes əsasən marina, portret, natürmort və peyzaj janrlarında olan əsərləri və plakatları ilə məşhurdur. O, daha çox animasiyalar yaradan rəssam kimi də rus incəsənətində iz qoymuşdur. XX əsrdə D.Y.Çerkes tərəfindən "Pozulmuş nigah" əsəri Dövlət Tretyakov qalereyasına verilir, 1935-ci ildə isə Dövlət Treatyakov qalereyasından Azərbaycan Dövlət Muzeyinin nəzdində fəaliyyət göstərən İncəsənət şöbəsinin kolleksiyasına daxil olur. Əsər 1936-ci ildən müstəqil

fəaliyyətə başlayan Azərbaycan Milli İncəsənət Muzeyinin Fond şöbəsinin Rəngkarlıq bölməsində qorunub saxlanılır və muzeyin seçilmiş əsərlərindən hesab edildiyi üçün daimi ekspozisiyada nümayiş etdirilir.


Şəkil 4. Pozulmuş nigah. 1877. Bakı. Azərbaycan Milli İncəsənət Muzeyi.

Pozulmuş nigah mövzusuna Pukirevdən qabaq 1860-cı ildə onun müasiri Adrian Markoviç Volkov (1827 - 1873) da müraciət etmişdir. O, əsərə («Прерванное обручение», 1860. Tretyakov qalereyası, Moskva) görə qızıl medalla da mükafatlandırılır. İki əsəri müqayisə etsək belə bir nəticəyə gəlmək olar ki, digər əsərdən fərqli olaraq hadisə kilsədə deyil, evdə, cütlük arasında planlaşdırılmış nigah mərasimində baş verir. Həmçinin əsərdə iştirak edən digər personajları rəssam otağın qaranlıq guşəsində yerləşdirib ki, bu da sujetin təsir gücünü və tamaşaçıdakı marağı azaldır.

V.V.Pukirev rus incəsənəti tarixində qısa da olsa, parlaq bir iz qoyub getdi. Rəssam bütün yaradıcılığı boyu yaratdığı əsərləri içində yalnız “Bərabər olmayan nigah” və “Pozulmuş nigah” əsərləri bütün dövrlə səsləşən məişət mövzulu və tənqidi - realizm üslubunda olan seçilmiş əsərlərdən sayılır. Bu gün Moskva Dövlət Tretyakov qalereyasi və Azərbaycan Milli İncəsənət Muzeyində nümayiş olunan tablolar rus rəssamlığının mahir nümunələri hesab edilir.

**Ədəbiyyat:**

1. Azərbaycan Milli İncəsənət Muzeyinin Rəngkarlıq fondu.
2. История Русского Искусства. Том IX книга первая. Русское Искусства второй половины XIX века. Издательство Наука. Москва 1965. (стр. 128,130)
3. Энциклопедия Искусства. Издательство “Педагогика” Москва 1977. (стр. 224, 225)
4. ru.wikipedia.org/wiki/Пукирев,_Василий_Владимирович
5. ru.wikipedia.org/wiki/Неравный_брак_(картина)
6. https://tvrain.ru/articles/desjat_drugih_kartin_vasilija_pukireva_krome_nerav-387465/
7. ru.wikipedia.org/wiki/Всероссийская_художественно промышленная_выставка_1882_года.

**Marriage theme in the creativity of the Russian painter V.V.Pukirev**

**Summary**

The middle of the 19th century is considered as the revival of Russian painting art and the creation of the style of critical realism. With the works of "The Unequal Marriage" (1862) and “Interrupted marriage” (1877) that were executed in the genre of domestic art and the style of critical realism, Vasili Vladimirovich Pukirev (1832 - 1890) could have proved himself in the history of Russian painting. The both paintings touch the topical themes of that period. The works are still popular as they were in the previous centuries and are of a huge interest for audience.

**Тема брака в творчестве русского художника В.В.Пукирева**

**Резюме**

Середина XIX века, по праву считается периодом развития критического реализма в искусстве и особого оживления русской живописи. Василий Владимирович Пукирев (1832-1890) один из тех художников - передвижников, который в произведениях, созданных в стиле критического реализма - «Неравный брак» (1862) и «Прерванное венчание» (1877), сказал свое весомое слово в истории русского изобразительного искусства. В обоих произведениях затронуты актуальные, не только для того времени темы, и поэтому, как и в прошлые века, они вызывают большой интерес зрителя.

**Rəyçi: s.f.d.X.V.Əsədova**